Azadlıq Radiosu

View the original article

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya dronları Nikopolda avtobusa hücum edib, 5 nəfər həlak olub

Sentyabr 16, 2026




Kiyevə dron hücumu

Rusiya qüvvələri sentyabrın 16-na keçən gecə Nikopolda marşrut avtobusuna dronlarla hücum edib. Bu haqda Dnepropetrovsk vilayət hərbi administrasiyasının rəhbəri **Oleksandr Qanja** məlumat verib. Beş sərnişin həlak olub, yeddi nəfər yaralanıb.

Kiyevdən Nikolayevə gedən sərnişin qatarı da dron hücumuna məruz qalıb. Qatar briqadası və sərnişinlər təxliyə olunub, onların daşınması üçün avtobuslar ayrılıb.

Rusiya dronları ilk dəfə deyil sərnişin qatarlarına hücum edir. Sentyabrın 8-də Kiyev-Sumı və Dnepr-Zaporojye qatarları, Sumı vilayətində şəhərətrafı elektrik qatarı dron hücumuna məruz qalıb, bələdçi qadın həlak olub. Sentyabrın 9-da "Şahed" dronu Xarkov vilayətində sərnişin qatarını vurub, yeddi nəfər yaralanıb. Sentyabrın 13-də isə dronlar Ukraynanın qərbində dəmir yoluna hücum edib, Kiyev-Varşava qatarının lokomotivi dağılıb.

Rusiya dronları ötən gecə Kiyevə də hücum edib. Şəhər meri **Vitali Kliçko**nun sözlərinə görə, paytaxtın Svyatoşinski rayonunda anbarlarda yanğın başlayıb. Hazırda yanğın söndürülür. Bir nəfər xəsarət alıb.

Ümumilikdə gecə ərzində Ukraynaya 80-ə yaxın Rusiya dronu ilə hücum gerçəkləşdirilib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur